

Qazaxstanьn ordenli şairi Çambul Çabajev Azərbajcanьn ordenli şairi Səməd Vurqunla. Şəkil 1937-çi il deqabr ajьnda Tbilisidə çəkilmişdir.

*Çambul*

# ELLƏR BAHARЬ

Jəhərləjin atьmь! mənə bu jurt dar gəlir!
Jenə bizim çöllərə nazlь bir bahar gəlir,
Oxujur səhralarьn qaragөzly qьzlarь
Kөpyklənir ellərin ətirli qьmьzlarь
Juvalarьn başьnda quşlar ucur, aj bahar!
Kişnəjərək caqьrьr dajlaqьnь madjanlar.
Aq sonalar dolaşьr gөj yzyny syzərək,
Bizim zymryd çөlləri ojmax-ojmax gəzərək,
Ah bu cicəkli səhra! xəjal kibi sehrikar
Odlar kimi alьşьb janan cicəkləri var.
Qajçь qanat lalələr alov kimi janaraq
Cөl cicəji sajrьşьr, səhradakь toja bax!
Jaqut kimi parlajьr qьzьl gylyn jarpaqь
Ətir sacьr çөllərin aq bənizli zənbaqь.

—

Bu bahar nəqməsindən daha bəzəklisən sən,
Bizim cicəkli vətən, bizim sevimli vətən!
Dyşmənin halqasьnda onbir əlkə daq kimi,
Dajanaraq, gyl acьr bəslənilmiş baq kimi,
Qaliblərin nə'rəsi səda salьr gөjlərə,
Qəhrəmanlar səsini əks eləjir daq, dərə.
Bizimlə addьmlajьr sьnanmьş pəhləvanlar,
Dөşyndə orden janan secilmiş qəhrəmanlar,
Ildьrьmlar, tufanlar bata bilməz hec bizə
Gөjlər, jerlər, dənizlər baş əjir qyvvəmizə.
Biz bөjyk insanlьqьn ən qyvvətli səsijik
Biz bytyn kainatьn qabaxcьl dəstəsijik.
Bizim dynja-mərd sьxdь kecdijimiz syrəkdən,
Xoşbaxt ellər bizdədir, şadlanьram yrəkdən
Nəqmələr də istidir gynəş kimi, qan kimi,
Өmyr şəfəqdə cimir, acьx bijaban kimi.
Ellər! Calьn! Oxujun! ystymyzdə bərqərar
Atamьz Stalinin bajraqь var, adь var,
Bir də onun mybariz, o bolşevik, mərd səsi,
Iradəsi, dyhasь, o mehriban nəfəsi!

Cevirəni ordenli şair SƏMƏD VURQUN.